AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

14 dekabr 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 48 (3662)

Əbədiyaşar xilaskar

Güclü və müasir Azərbaycan ulu öndərin şah əsəridir

Vəfatından 20 il ötən xalqımızın ümummilli lideri Heydər Əliyevin ideyalarının işığında Azərbaycan əsrə bərabər yol keçib. Ölkəmiz inkişaf edərək qüdrətli dövlətə çevrilib. Çoxəsrlik tariximizdə bənzəri olmayan Vətən müharibəsi, eləcə də uğurlu antiterror tədbirləri nəticəsində respublikamızın ərazi bütövlüyü və suverenliyi tam təmin olunub.

Prezident İlham Əliyev dekabrın 12-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edib, məzarı önünə əklil qoyub.

Dövlətimizin başçısı ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla anıb, məzarı üzərinə gül dəstələri qoyub. Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib.

Yüksəlişə doğru

Azərbaycanın ən yeni tarixi, qazandığı möhtəşəm uğurlar ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun 1969-cu ildən başlayan və 30 ildən artıq davam edən rəhbərliyi ilə Azərbaycan milli dirçəliş və intibah dövrünü yaşayıb.

1990-cı illərin əvvəllərində ölkəmizin yaşadığı çətin günlərə biganə qala bilməyən Heydər Əliyev Moskvadan Azərbaycana qayıtdı. 1993-cü ilin yayında vəziyyət daha da gərginləşdi. Xalqın çağırışı ilə iyunun 9-da Naxçıvandan Bakıya gələn Heydər Əliyev üzərinə böyük məsuliyyət - xilaskarlıq missiyası götürərək milli dövlətimizi qurmağa başladı.

1994-cü il sentyabrın 20-də Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair sonradan "Əsrin müqaviləsi" adı almış neft kontraktları imzalamaqla ölkəmizin dünyanın siyasi xəritəsindəki mövqeyini möhkəmləndirdi. Sonra Azərbaycan neftinin dünya bazarlarına çıxmasında müstəsna rolu olan Bakı-Tbilisi-Ceyhan neft kəməri istifadəyə verildi. Onun ardınca Bakı-Tbilisi-Ərzurum qaz kəməri ərsəyə gəldi.

Prezident İlham Əliyev dünyada yaranan reallıqları nəzərə almaqla, ulu öndərin yolunu əzmlə davam etdirir. Xalq da öz liderinə inanır, onu dəstəkləyir. Bu inam və dəstəyin, həmrəyliyin ən bariz nümunəsi 44 günlük Vətən müharibəsində, eləcə də uğurlu antiterror tədbirləri nəticəsində qazanılan möhtəşəm Zəfərdir.

Bu nailiyyətlərin əsasında məhz Heydər Əliyevin uzaqgörən siyasəti, müdrik strategiyası, milli dövlətçilik konsepsiyası dayanır.

Birinci vitse-prezidentdən paylaşım

Xatırlanan, sevilən, hörmətlə anılan lider

Xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 20 il ötür. Ulu öndərin anım günü ilə əlaqədar Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində paylaşım edib.

Paylaşımda deyilir: "Heydər Əliyev. Xatırlayırıq, sevirik, hörmətlə anırıq".

Etibarlı müttəfiq

Münasibətlər inkişaf edir

Prezident İlham Əliyev dekabrın 11-də Gürcüstan parlamentinin sədri Şalva Papuaşvilinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Prezident İlham Əliyev ölkələrimizin həyata keçirdiyi birgə layihələrin önəminə toxunaraq, bunu geniş regionda - Avrasiya məkanında önəmli amil kimi dəyərləndirib. Dövlətimizin başçısı parlamentlərarası əməkdaşlığın da münasibətlərimizin inkişafına mühüm töhfə verdiyini vurğulayıb.

Prezident Baş katibi qəbul edib

Birgə bəyanat siyasi iradənin nümayişidir

Prezident İlham Əliyev dekabrın 8-də Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriçi qəbul edərkən Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında qəbul olunmuş birgə bəyanata münasibət bildirib.

Qeyd olunub ki, birgə bəyanat qarşılıqlı sülh gündəliyinin irəli aparılması və ölkələrimiz arasında münasibətlərin normallaşdırılması üçün siyasi iradənin bir daha nümayişidir. Avropa Şurası da iki ölkə arasında etimad quruculuğu proseslərinə töhfə vermək üçün çox yaxşı platformadır.

Rəsmi xəbərlər

- Prezident İlham Əliyev dekabrın 11-də Bakı şəhərinin Qaradağ rayonu ərazisində və Yardımlı rayonunun Masallı–Yardımlı (44 km)–Sırıq–Əfçədulan–Horavar–Əngövül–Zəngələ–Vərov–Keçələkəran avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında sərəncamlar imzalayıb.

- Prezident İlham Əliyev dekabrın 8-də Bakı şəhərinin Pirallahı rayonu ərazisində və Gədəbəy rayonunun Kiçik Qaramurad–Cəfərli–Əyrivəng–Alnabat–Kərimli–İnəkboğan–Göyəmli–Şınıx–Göyəlli–Çobankənd–Şahdağ–Çiçəkli avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında sərəncamlar imzalayıb.

- Prezident İlham Əliyev dekabrın 7-də növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında Sərəncam imzalayıb.

Sadiq dostluq, strateji tərəfdaşlıq

Azərbaycanın enerji təhlükəsizliyində oynadığı rol getdikcə artır

Prezident İlham Əliyev dekabrın 10-da Serbiya Prezidenti Aleksandar Vuçiçin dəvəti ilə bu ölkəyə işgüzar səfərə getməsi əməkdaşlıq sahələrinin bir qədər də genişləndirilməsinə yeni impuls verəcək. Ümumiyyətlə, Serbiya Azərbaycanla əməkdaşlıq əlaqələrinin inkişafında maraqlı olan ölkələrdən biridir.

Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdən biri olan Serbiya ilə ikitərəfli münasibətlər 1997-ci ildə qurulub. Dövlət başçıları səviyyəsində son illər intensivləşən qarşılıqlı yüksək səviyyəli səfərlər bu əməkdaşlığı xeyli genişləndirib, dərinləşdirib.

Səfəri çərçivəsində dövlət başçısı Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimində çıxış edərkən qarşılıqlı səfərlərin əhəmiyyətini xüsusilə vurğulayıb. İki ölkə başçısının şəxsi dostluq münasibətləri də böyük dərəcədə əlaqələrinin inkişafına xidmət edib. Bu əlaqələrin sürətli və dinamik şəkildə inkişafı strateji tərəfdaşlıq haqqında Bəyannamənin imzalanması ilə nəticələnib.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, interkonnektorun açılışı dostluq mərasimi, strateji tərəfdaşlıq mərasimi idi. Çünki Serbiya və Bolqarıstanın enerji təhlükəsizliyinə böyük töhfə verəcək layihə Azərbaycanın qaz ixracı coğrafiyasını daha da genişləndirir. Azərbaycan, sözün əsl mənasında, etibarlı tərəfdaşdır, dostluq ənənələrinə həmişə sadiqdir və dostluğu yüksək qiymətləndirir. Məhz dostluq, qarşılıqlı anlaşma, strateji tərəfdaşlıq üzərində qurulmuş əlaqələr bir çox ölkələrin maraqlarını təmin edir və qaz sahəsində əməkdaşlıq, eyni zamanda, genişmiqyaslı regional əməkdaşlığa da güclü zəmin yaradır.

İki ölkə arasında əməkdaşlıq ikitərəfli formatla yanaşı çoxtərəfli müstəvidə də uğurla davam etdirilir. Beynəlxalq arenada ölkələrimiz bir-birinin suverenliyi, ərazi bütövlüyünü birmənalı şəkildə qarşılıqlı surətdə dəstəkləyir, beynəlxalq təşkilatlar çərçivəsidə hər iki ölkə tərəfindən irəli sürülən təşəbbüslər nəzərə alınır.

İki ölkə arasında enerji sahəsindəki əməkdaşlıqda yeni imkanlar açılıb. Serbiya Azərbaycanın Avropada qaz bazarını şaxələndirməsində yeni tərəfdaşıdır. Serbiyaya qaz tədarükü nəticəsində Azərbaycan qazını idxal edən ölkələrin sayı 8-ə çatıb. Bu, Azərbaycanın etibarlı enerji tərəfdaşı missiyasının genişlənməsinin və Avropanın enerji təhlükəsizliyində oynadığı rolun getdikcə artmasının bariz göstəricisidir. Bu gün Azərbaycan qazı Serbiyanın təchizat mənbələrinin şaxələndirilməsi ilə yanaşı, Mərkəzi Avropaya qazın paylanmasında tranzit ölkə kimi Serbiyanın strateji roluna da töhfə verir. Serbiya etibarlı tərəfdaş olan Azərbaycandan elektrik enerjisinin Avropaya ixracını təmin edəcək Qara dəniz sualtı kabel layihəsinə qoşulma perspektivlərini nəzərdən keçirir.

Ulu öndərə böyük ehtiram 2

Vətəndaş qəbulu keçirilib 2

Ümumşəhər toplantısı keçirilib 3

Polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları 4

RESPUBLİKA XƏBƏRLƏRİ

Qarabağda tikintinin miqyası genişlənir

Təxminən 70 minə yaxın insanın 2026-cı ilədək Ağdam, Füzuli, Xocavənd və Tərtər rayonlarına böyük qayıdışı nəzərdə tutulub. Təkcə Ağdam şəhərinə 20 min insan köçü planlaşdırılıb. Füzuli şəhərində isə bu rəqəm təxminən 10 minə yaxın təşkil etməlidir. Növbəti il - 2024-cü il tikinti üzrə icra işlərinin pik dövrünə təsadüf edəcək. Demək olar ki, layihələndirmə işlərinin 80 faizi yekunlaşmaq üzrədir.

Cənubi Qafqazın böyük stansiyası

Mingəçevirdə "Azərbaycan" istilik elektrik stansiyasının ərazisində inşa olunan Cənubi Qafqazın ən böyük eyni tipli stansiyası 2025-ci ilin I yarısında istifadəyə veriləcək. "Azərenerji" ASC-dən bildirilib ki, yeni stansiyanın tikintisi qrafikə uyğun aparılır. Bundan başqa işğaldan azad olunmuş ərazilərdə bərpa olunan enerji mənbələrinin isə salınması üzərində işlər gedir. Yaxın zamanlarda yeni açılışlar olacaq. Cəbrayılda BP şirkəti ilə birlikdə 200 mVt gücündə günəş elektrik stansiyasının tikintisi nəzərdə tutulub.

Karantin rejiminin müddəti uzadılıb

Ölkə ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə Nazirlər Kabineti qərar qəbul edib. Qərara əsasən koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan ərazisində xüsusi karantin rejiminin müddəti 2024-cü il aprelin 2-si saat 06:00-dək uzadılıb.

Hərbçilər azad olundular

Dekabrın 13-də Qazax rayonunda Azərbaycanla Ermənistan arasında hərbçilərin qarşılıqlı surətdə azad edilməsi prosesi baş tutub. Proses zamanı Ermənistan tərəfindən Azərbaycanın 2 hərbi qulluqçusu - Hüseyn Axundov və Aqşin Bəbirov azad olunub. Azərbaycan tərəfi isə erməniəsilli 32 şəxsi qarşı tərəfə təhvil verib. Qeyd edək ki, dekabrın 7-də iki ölkə arasında aparılmış danışıqlar nəticəsində humanizm prinsipinə sadiqlik ruhunda, xoş niyyət göstəricisi olaraq qarşılıqlı etimad tədbiri kimi hərbçilərin azad edilməsi barədə razılıq əldə olunub.

Piyadalar maarifləndirilir

DİN-in Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşları piyada məsuliyyətinin artırılması və onların iştirakı ilə baş verən yol-nəqliyyat hadisələrinin qarşısının alınması məqsədilə profilaktik tədbirləri davam etdirilib. Paytaxtın Sabunçu, Qaradağ, Xətai, Nəsimi, Binəqədi, Nərimanov, Suraxanı və Abşeron rayonlarında təşkil olunan tədbirlər zamanı yaxınlıqda yerləşən yerüstü və yeraltı piyada keçidlərindən istifadə etməyən piyadalar saxlanılaraq, yol hərəkəti qaydalarına riayət etməyin həyati əhəmiyyəti barədə ətraflı məlumatlar verilib.

Ulu öndərə böyük ehtiram

Daxili İşlər Nazirliyinin əməkdaşları anım günü ilə bağlı Fəxri xiyabanı ziyarət ediblər

Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anım günü ilə əlaqədar daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov, nazirliyin rəhbər heyəti və Daxili Qoşunların bir qrup hərbi qulluqçusu Fəxri xiyabanı ziyarət edib.

Ulu Öndərin məzarı önünə gül dəstələri qoyulub, əziz xatirəsi böyük ehtiramla yad edilib.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə gül dəstələri qoyulub.

Vətəndaş qəbulu keçirilib

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov dekabrın 6-da və 7-də Quba Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Quba rayonundakı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı şəhər və rayonlarından qəbula gələn 93 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında xidmətə qəbul şərtlərinə uyğun gələn 133 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb. Onların 37-si Vətən müharibəsi iştirakçısıdır.

Anda sədaqət, ideyalara sadiqlik

“Heydər Əliyev İli” daxili işlər orqanlarında təntənə ilə qeyd olunur

Hüquqi dövlət quruculuğunda polisin rolu həmişə xüsusi əhəmiyyət kəsb edib. Məhz buna görə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə polisin fəaliyyətini tənzimləyən qanunların qəbul edilməsi və ciddi islahatların aparılması yeni müstəqillik əldə etmiş dövlətin ilk hədəflərindən birinə çevrilmişdi. Ümummilli liderimiz sağlam vətəndaş cəmiyyəti qurmaq, güclü Azərbaycan dövləti yaratmaq üçün başlıca amilin sabitlik və əmin-amanlıq olduğunu dəqiq hesablamışdı.

Hüquqi dövlət quran lider

Yalnız ictimai asayişin bərqərar olduğu cəmiyyətdə inkişafın mümkün olduğunu Azərbaycanın ən yeni tarixi də nümayiş etdirəcəkdi. Ümummilli lider isə bunu xeyli əvvəl görmüşdü. O, əsaslı islahatlar həyata keçirməklə, güclü qanunvericilik sistemi və qanunların keşiyini çəkən peşəkar qurum yaratmaqla öz istəyinə nail oldu. Mütəxəssislər yekdil olaraq bu fikirdədirlər ki, 1994-cü ildə “Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında” fərmanı imzalayan ulu öndər dövlət quruluşunun mühafizəsində, insan hüquq və azadlıqlarına yönələn cinayətkar qəsdlərə qarşı mübarizədə əsaslı dönüş yaratdı. Aparılan islahatlar nəticəsində ölkədə cinayətkarlığın sayı minimuma endirildi. Çox keçmədi “Məhkəmələr və hakimlər”, eləcə də “Prokurorluq haqqında”, “Əməliyyat-axtarış fəaliyyəti haqqında” qanunlar hazırlandı. Bir sözlə, hüquq sisteminin heç bir sahəsi islahatlardan kənarda qalmadı.

Ulu öndər irsini yaşadırıq

Başa çatmaq üzrə olan 2023-cü ilin Prezident İlham Əliyevin imzaladığı sərəncamla “Heydər Əliyev İli” elan edilməsi Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə ulu öndərin həsr etdiyi həyatının, siyasi irsinin öyrənilməsinə yaxşı fürsət yaratdı. Bu çərçivədə daxili işlər orqanlarında keçirilən tədbirlər ulu öndərin xatirəsinə bəslənən ehtiram bağlarının nə qədər möhkəm olduğunu növbəti dəfə təsdiq etdi.

DİN Şəxsi Heyətlə İş üzrə İdarəsindən verilən məlumata görə, Prezidentin məlum Sərəncamından sonra daxilli işlər orqanlarında həyata keçiriləcək tədbirlərin təqvim planı təsdiq edilib, icrası isə nəzarətdə saxlanılıb. İlin son gününədək davam etdiriləcək tədbirlər çoxşaxəlidir.

İlk olaraq, ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin təşəkkülündə müstəsna xidmətləri haqqında mövzular xidməti hazırlıq dərslərinin planına daxil edilərək tədris olunub. Nazirlikdə, şəhər, rayon polis idarə və şöbələrində keçirilən seminarlarda daxili işlər orqanlarının milli təməllər üzərində formalaşmasında ümummilli liderin rolundan bəhs edilib. Müstəqil Azərbaycanın dövlət quruculuğunda ümummilli liderin müstəsna xidmətləri, hüquq mühafizə orqanlarının milli təməllər üzərində formalaşmasında və inkişafında danılmaz fəaliyyəti barədə mühazirələr deyilib.

Birgə mübarizə yolu

Eyni məzmunlu mühazirələr DİN-in Polis Akademiyasında və Daxili Qoşunların Ali Hərbi Məktəbində "Heydər Əliyev saatı" adı ilə baş tutub. “Zəfər günü” ilə bağlı isə “Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş Zəfər tarixi” mövzusunda respublika elmi-praktik konfransı keçirilib.

Bu tədbirlər ulu öndərin respublikaya rəhbərlik etdiyi bütün dövrlərdə ölkəmizdə digər sahələrin inkişaf etdirilməsilə yanaşı, daxili işlər orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi və polis əməkdaşlarının peşəkarlığının artırılması, eləcə də maddi-sosial vəziyyətlərinin yüksəldilməsinin dövlətin prioritetlərindən olması barədə aydın təsəvvür yaratmışdır.

Orta məktəblərdə daxili işlər orqanları əməkdaşlarının və hərbi qulluqçuların, həmçinin ictimai-siyasi xadimlərin, alimlərin, müharibə veteranlarının və vətəndaşların iştirakı ilə təntənəli mərasimlər keçirildi. İdman və bilik yarışları, ağacəkmə və qanvermə aksiyaları təşkil olundu. Gənc əməkdaşların Heydər Əliyev mərkəzlərinə, muzey və sərgilərə təşkil edilən ekskursiyaları ümummilli liderin zəngin ictimai-siyasi fəaliyyəti və mənalı həyatı ilə tanışlığına böyük töhfə verdi.

Daxili işlər orqanlarının əməkdaşları üçün “Heydər Əliyev İli” həm də dövlətçilik uğrunda birgə mübarizəyə, polisin yaxın tarixinə nəzər salmaq demək idi. Çünki Heydər Əliyev Azərbaycanı tələtümlü günlərdən, ağır sınaqlardan hüquq mühafizə orqanlarına, xüsusilə də asayiş keşikçilərinə güvənərək, polisə arxalanaraq çıxarmışdı.

Dövlətin əsas sütunlarından biri kimi gördüyü daxili işlər orqanları bu gün ictimai asayişin qorunması və cinayətkarlıqla mübarizədə öz uğurlarını qoruyub saxlamaqla, əsası ulu öndərin təşəbbüsü ilə qoyulan qanunların gerçək keşikçisi oduğunu təsdiqləyir. Bu, yalnız anda sədaqət borcu deyil, həm də ulu öndərin ideyalarına sadiqlik nümayişidir.

Rəşad Mehtiyev
polis baş serjantı

Ümumşəhər toplantısı keçirilib

Paytaxtda görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə edilib

Bakı Şəhər Baş Polis İdarəsində paytaxtın polis sahə rəisləri və inspektorlarının iştirakı ilə ümumşəhər toplantısı keçirilib. Üç gün davam edən toplantıda görülən işlər, qarşıda duran vəzifələr müzakirə edilib.

Bakı şəhər BPİ-nin İctimai təhlükəsizlik idarəsinin rəisi polis polkovniki Elnur Kərimov vurğulayıb ki, vətəndaşlara və onların müraciətlərinə diqqətlə yanaşılması, DİN rəhbərliyinin göstərişlərinə uyğun olaraq vətəndaş məmnunluğunun təmin edilməsi əsas vəzifələr sırasındadır.

Hər bir əməkdaşdan cinayətkarlığın profilaktikası və ictimai asayişin təminində yüksək peşəkarlıq göstərməsi tələb olunur. Hazırda da aktual olan qanunsuz silahların aşkarlanması və müsadirə edilməsinin, ov silahlarının saxlanılması vəziyyətinin yoxlanılmasının əhəmiyyəti xüsusilə vurğulanıb.

Daha sonra qanunsuz küçə ticarəti və antisanitariya hallarının aradan qaldırılması, qeydiyyat qaydalarının yoxlanılması, münaqişəli ailələrlə profilaktiki iş və yerlərdə olan vəziyyət öyrənilib, müvafiq tapşırıqlar verilib.

Tariximizi öyrənənlər yarışıb

Kursantlar biliklərini nümayiş etdiriblər

Polis Akademiyasında "Heydər Əliyev İli"nə həsr olunmuş "Tariximizi öyrənək" adlı bilik yarışı keçirilib.

Əvvəlcə ulu öndər Heydər Əliyevin, ərazi bütövlüyümüz uğrunda canından keçən vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Tədbiri giriş sözü ilə Polis Akademiyasının rəisi, polis general-mayoru Canpolad Daanov açıb. O, iştirakçıları salamlayaraq ulu öndər Heydər Əliyevin zəngin irsindən, azərbaycançılıq məfkurəsindən və Azərbaycan tarixindəki əvəzolunmaz rolundan bəhs edib. Akademiya rəisi bu qəbildən olan yarışların keçirilməsinin kursantların biliklərinin daha da zənginləşməsində böyük rol oynadığını bildirib və komandalara uğurlar arzulayıb.

Moderator komandaları təqdim etdikdən sonra yarışın şərtlərini diqqətə çatdırıb. Yarışda əyani təhsil alan I kurs kursantlarından ibarət 12 komanda iştirak edib. Üç mərhələdən ibarət yarışda komandalar müəyyən olunmuş vaxt ərzində verilən sualları cavablandırıblar. Eyni zamanda, mərhələlərarası fasilələrdə auditoriyaya ünvanlanan sualları düzgün cavablandıranlar da mükafatlandırılıb.

Yekun nəticələrinə əsasən, münsiflər tərəfindən "Xocalı" komandası qalib elan olunub. "Yaşma" və "Dəmir Yumruq" komandaları isə II və III yerlərə layiq görülüblər.

Cəbhədən başlayan xidmət

O da bu gün sabitliyin sipərinə çevrilib

Vətən müharibəsində Müzəffər Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və komandanlığı altında əldə olunan tarixi qələbəmiz bir daha sübut etdi ki, mübariz Azərbaycan gəncliyi Vətənimizi qorumağa və bu yolda canından keçməyə daim hazırdır.

Bu gün dövlətimizin dəstəyi Azərbaycan gənclərinə bütün arenalarda uğur qazanmaq üçün geniş imkanlar yaradıb. İdmanda, təhsildə bir sözlə, həyatın bütün sahələrində



bacarıqlarını inkişaf etdirmək istəyənlərin üzərinə bütün qapılar açıqdır. Bu gün gənclərin irəli çəkilməsi dövlətin ali dəyərlərinin ifadəsidir.

DİN rəhbərliyi tərəfindən də gənclərə, xüsusən də müharibə iştirakçılarına, şəhid ailə üzvlərinə xüsusi dəstək və qayğı göstərilir. Onlar daxili işlər orqanlarında xidmətə qəbul olunur, Vətənə, xalqa xidmət edirlər.

Məhz belə gənclərdən bir də Vətən müharibəsi iştirakçısı Cavid Ramin oğlu Əsgərovdur. C.Əsgərov 1998-cu ildə Bakıda doğulub. O, 188 nömrəli tam orta məktəbin məzunudur.

2020-ci il sentyabr ayının 27-də başlayan Vətən müharibəsində Suqovuşan, Ağdərə uğrunda gedən döyüşlərdə igidlik göstərib. Hücum tapşırığını yerinə yetirdiyi zaman çoxsaylı qəlpə yaraları almasına baxmayaraq döyüş meydanını tərk etməyib, düşmənə qarşı qəhrəmancasına vuruşub.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəsur döyüşçü", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı ilə "Vətən müharibəsi iştirakçısı" medalına layiq görülüb.

Polis serjantı Cavid Əsgərov sıralarımızda 2022-ci ildən xidmət edir, Abşeron Rayon Polis İdarəsinin əməkdaşıdır.

Aytəkin Nəcəfova
polis polkovnik-leytenantı

Hüquqpozmaların qarşısı alınıb

Vətəndaş məmnunluğu təmin olunur

Bakı şəhər sakini Veranika Pirizadə hüquqlarının pozulması ilə bağlı Nərimanov RPİ-nin 16-cı Polis Şöbəsinə şikayət edib. O, izahatında bir müddət əvvəl paytaxt ərazisində məişət əşyaları satılan dükanlardan birindən kart vasitəsilə 3000 manat ödəniş edərək İtaliya istehsalı adı ilə çıl-çıraq aldığını bildirib. Ertəsi gün həmin çıl-çırağın İtaliya məhsulu deyil, yerli bir şirkətə məxsus olduğunu müəyyən edib və sözügedən dükana gələrək pulunun geri qaytarılmasını istəyib. Qarşılığında kobud rəftarla rastlaşdığını görən vətəndaş məsələnin hüquqi müstəvidə həll olunması üçün polisə üz tutub.

Şöbə əməkdaşları tərəfindən V.Pirizadənin hüquqları mövcud qanunvericiliyin tələbləri əsasında bərpa olunub və dəymiş maddi ziyanın ona qaytarılması təmin edilib.

*****

Dələduzluğa məruz qalmış daha bir paytaxt sakini Təhla Əsgərov da şöbə əməkdaşlarının fəaliyyətindən məmnun qalıb. Belə ki, o, "tik-tok" sosial şəbəkə platformasında jeton almaq məqsədilə elə şəbəkədən tanıdığı şəxslə mobil telefonla əlaqə saxlayıb və sonuncunun kart hesabına 60 manat göndərib. Bir müddət sonra etibarından sui-istifadə olunduğunu başa düşərək asayiş keşikçilərinə şikayət ərizəsilə müraciət edib.

Hüquqpozma əməlini törədən şəxsin kimliyi qısa zaman kəsiyində polis əməkdaşları tərəfindən müəyyənləşdirilib və zərərçəkmişə dəymiş maddi ziyan ödətdirilib.

Teymur Əlizadə
polis mayoru

Həvəs, arzu və hədəf

Bilik və bacarıqların inkişafı uğura yol açır

Bu ilin müvafiq dövrü ərzində gənclərin Daxili İşlər Nazirliyi sistemində təhsilə və xidmətə təşviq edilməsi məqsədilə polis əməkdaşları tərəfindən Abşeron da daxil olmaqla respublikanın 45 rayonunda məktəblərdə IX-X və XI sinif şagirdləri ilə görüşlər keçirilib.

Şagirdlərə polisin tarixi, daxili işlər orqanlarına xidmətə qəbul qaydaları, həmçinin DİN sistemində təhsil almaq imkanları barədə ətraflı məlumat verilib.

Daxili işlər orqanlarının ölkəmizdə təmin etdiyi etibarlı sabitlik, müstəqillik tariximizin ən mühüm nailiyyətlərindən biri kimi qeyd edilib, bu taleyüklü xidmətdə hər bir sağlam gəncin iştirak etmək, polisin şərəfli tarixinə öz adını yazmaq imkanının olduğu vurğulanıb. Eyni zamanda, qəbulla bağlı zəruri məlumatlar iştirakçıların nəzərinə çatdırılaraq, onları maraqlandıran suallar cavablandırılıb. Bundan əlavə, tədbirlərin keçirildiyi məktəblərdə aidiyyəti məlumat-reklam posterləri, plakatlar yerləşdirilib və iştirakçılara müvafiq bukletlər paylanılıb.

"Polis"

Tələbələr kursantların qonağı oldu

"Açıq qapı" tədbirləri Polis Akademiyasına marağı artırıb

Polis Akademiyasının növbəti "Açıq qapı"sından Bakı Dövlət Universitetinin hüquq fakültəsinin bir qrup tələbəsi keçib. Onlar Heydər Əliyev Mərkəzi, tədris korpusları, idman zalları və kriminalistik şəhərciklə tanış olublar.

Qonaqlara Akademiya haqqında məlumatları özündə əks etdirən bukletlər paylanıb, onları maraqlandıran suallar cavablandırılıb. Sonra xatirə şəkilləri çəkdirilib.

Qaçaqmalçı tutuldu

Gizli anbarda priotexniki vasitələr aşkar olundu

Külli miqdarda pirotexniki vasitələrin qaçaqmalçılıq yolu ilə Gürcüstandan ölkəyə gətirilərək Gəncədə yerləşən gizli anbarda topdansatışının təşkil olunduğu barədə polis əməkdaşlarına əməliyyat məlumatı daxil olub. Həmin ünvanda həyata keçirilən tədbir nəticəsində pirotexniki vasitələrin topdansatışını təşkil edən 1985-ci il təvəllüdlü İlham Zakiroğlu saxlanılıb.

Müəyyən olunub ki, adıçəkilən şəxs pirotexniki vasitələri qaçaqmalçılıq yolu ilə hissə-hissə ölkəyə keçirəndən sonra Gəncə şəhərinə gətirərək respublikanın müxtəlif rayonlarına və "Sədərək" Ticarət Mərkəzində mağazalara topdansatışını təşkil edib.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, saxlanılan şəxs barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, əməliyyat zamanı aşkar olunan pirotexniki vasitələrin "qara bazar"da satış qiyməti 300 min manatdan artıqdır.

Etibarsız sərnişin

Taksi sürücülərinə qarşı dələduzluq edilib

Nərimanov rayonu ərazisində taksi fəaliyyəti ilə məşğul olan beş nəfər 16-cı Polis Şöbəsinə müraciət edərək avtomobillərinə müştəri kimi əyləşən şəxsin onlara üzərində "etibarsız" yazılan 50 və 100 manatlıq əskinaslar verib əvəzində isə pulun qalığını aldığını bildiriblər.

Həyata keçirilən əməliyyat tədbirləri nəticəsində qanunazidd əməlləri törətməkdə şübhəli bilinən əvvəllər məhkum olunmuş Hafiz Mahmudov saxlanılıb.

Onun üzərinə keçirilən baxış zamanı dələduzluq edərkən istifadə etdiyi üzərində "etibarsız" yazılan 50, 100 və 200 manatlıq saxta əskinaslar aşkarlanaraq götürülüb.

Sərhəd tanımayan cinayətlər...

Kibertalama əsl qlobal pandemiyadır

Kiberməkan dünyada insanları əvvəlkindən daha çox bir-birinə bağlayıb. Bunun bütün üstünlüklərinə baxmayaraq, güclənən virtual əlaqələr riskləri də artırır.

İnternet üzərindən törədilən dələduzluq əməlləri bu təhdidlərin virtuallıqdan gerçəkliyə necə sürətlə keçə bildiyini göstərən nümunələrdən biridir. Cinayət planı kiber məkanda işlənib hazırlansa da, real həyata transfarmasiya edilməklə ictimai təhlükəli əmələ çevrilir və ondan insanlar zərər çəkir. Deməli, bu kimi kibertalama əməlləri həm də ictimai təhlükəsizliyi təhdid edir.

İnternetdə zərərli kontentlərin yayılması, hakerlik, maliyyə məlumatlarını oğurlamaq üçün imail poçt fişinqi, narkotik vasitələrin qanunsuz dövriyyəsində onlayn imkanların meydana çıxması kimi yeni təhdidlərin "kiber" aspektindən başqa ortaq bir cəhəti var: bunlar cinayətdir. Cinayətkarlıq da bütün hallarda onunla mübarizə aparan qurumların, xüsusən polisin cəmiyyətdən güclü dəstək alması ilə "buxovlanır". Virtual məkanın içində yuvalanmış kibercinayətkarlıqla effektiv mübarizə aparmaq üçün isə belə bir ictimai dəstəyin, hətta, əməkdaşlığın olması dünyanın hər yerində toplumdan gözlənilir. Çünki kibercinayətkarlıq, onun ayrı-ayrı növləri qlobal pandemiya kimi sərhədləri çoxdan aşıb.

Paylaşılan məsuliyyət

İnternet adlı qlobal şəbəkəyə qoşulmuş ölkəmiz bu risklərdən uzaqda qala bilməzdi, necə ki, qalmayıb.

Bu gün vətəndaşların onlayn dələduzluq hadisələrilə üzləşməsi bir az da öz "günahları" sayıla bilər. Məsələ ondadır ki, kiberdələduzluq hər nə qədər "müasir cinayət növü" sayılsa da, özünün klassik mahiyyətini itirməyib. Dələduzluq hadisələrində cinayətkarla bərabər onun qurbanı, adətən, el qınağına ona görə məruz qalır ki, cinayət tora düşən şəxsin sadəlöhvlüyü və yaxud diqqətsizliyi ucbatından baş tutur. Hüquqşünaslar cinayətkarla zərərçəkənin bu qarşılıqlı "münasibəti"ndən törənən hadisəni viktimoloji cinayət sayır. Zərərçəkən aldadılma prosesinin əvvəlində könüllü iştirak edir, hər şey onun "rizası" ilə yekunlaşır. Burada hadisənin iştirakçıları arasında məsuliyyət paylaşımı da var – cinayətkar qanun qarşısında, zərərçəkən isə cinayətə şərait yaratmanın mənəvi məsuliyyətini daşıyır.

Dələduzların tutulana qədər bir müddət cinayətlərini davam etdirə bilməsinin səbəbi elə budur. İnsanlar feysbuk, instaqram, tvitter kimi sosial şəbəkələr üzərindən saxta hesablara gizli istifadəçi məlumatlarını, bank kartlarına aid məxfi şifrələri tanımadıqları şəxslərə könüllü şəkildə ötürürlər. Məsələ yalnız bundan sonra mürəkkəbləşir. Real həyatda cinayət hadisəsi cinayətkarların olduğu yerdə baş verir. Kiberməkanda isə cinayətkarlar bir ölkədə yaşaya, başqa ölkədə hadisəni törədə, cinayətin izləri, dəlil-sübut isə üçüncü bir ölkədə ola bilər. Buna görə hadisə barədə hüquq mühafizə orqanlarına şikayət olanda cinayət təqibini həyata keçirmək çətinləşir, yaxud kiberdələduzları tutub hakim qarşısına çıxarmaq zaman alır.

Nəyi etməli, nəyi etməməli?

Ümumilikdə isə polisin kibertəhlükəsizlik üzrə ixtisaslaşmış əməkdaşlarının peşəkarlığı və sahib olduğu müasir elmi-texniki avadanlıqlar klaviatura arxasındakı saxta kimliyi ifşa etməyə və şübhəli şəxsin yerini müəyyənləşdirməyə imkan verir. Ölkəmizdə sosial şəbəkələrdə qruplar yaradaraq dələduzluq edən şəxslərə qarşı indiyədək keçirilmiş uğurlu əməliyyat tədbirləri təsdiq edir ki, kiberməkanda belə kimsə izini itirib yaxasını ədalətin əlindən qurtara bilmir. Polisin son dövrlər kibertalama cinayətlərinə qarşı qabaqlayıcı-profilaktik tədbirləri artırması, maarifləndirici videoçarxlar yayması və xəbərdarlıqlar etməsi hansısa ölkədə əyləşib hiylə ilə qazanc əldə etmək istəyən kibertalançıların bizim vətəndaşları qarət edə bilməməsinə yönəlib. Polis cəmiyyətin dəstəyini məhz bu məqamda hiss etməlidir. Edilən xəbərdarlıqlara baxmayaraq şübhəli keçidlər kliklənəcəksə, bank kartlarının məxfi saxlanılmalı olan məlumatları könüllü olaraq başqasına ötürüləcəksə, onda bu xəmir hələ çox su aparacaq.

Nihad Kərimli

Sərhədləri aşan qələbə

İdman Cəmiyyətinin yetirmələri fərqləndilər

Dekabrın 9-da Berlin şəhərində ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş K-1 versiyası üzrə 10-cu peşəkar döyüş turniri keçirilib.

Yarışa 7 idmançımız qatılıb. Onlardan üçü WAKO PRO kəmərinin sahibi olub. Digərləri isə reytinq döyüşlərində qalib gəlib.

Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin idman-təlim şöbəsinin rəisi polis polkovnik-leytenantı Eduard Məmmədovun tələbələri, həmçinin DİN İdman Cəmiyyətinin təmsilçiləri olan Amin Quliyev 63,5 kiloqram çəki dərəcəsində nokautla qələbə qazanıb, Anar Məmmədov isə 60 kiloqram çəki dərəcəsində WAKO PRO kəməri uğrunda rəqibindən güclü olduğunu təsdiq edib.

Qeyd edək ki, DİN Daxili Qoşunların əməkdaşı Qəşəm Məmmədov da 75 kiloqram çəki dərəcəsində çempion olub.

Polis idmançıların uğuru

Olimpiya mükafatçısı Azərbaycan çempionu oldu

Bu günlərdə boks üzrə kişilər arasında Azərbaycan çempionatı keçirilib. Çempionatda ölkənin müxtəlif şəhər və rayonlarını təmsil edən 41 komandadan 167 boksçu gücünü sınayıb. Altı gün davam edən turnirdə 13 çəki dərəcəsi üzrə mükafatçılar müəyyənləşib.

İştirakçılar arasında daxili işlər orqanlarının əməkdaşları və DİN İdman Cəmiyyətinin yetirmələri də yer alıb. DİN Komendant Xidmətinin İnzibati binaların təhlükəsizliyi və təmini bölüyünün polis serjantı Eldar Quliyev 86 kiloqram çəki dərəcəsində, DİN Baş Mühafizə İdarəsinin Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunun Mühafizəsi üzrə Polis İdarəsinin taqım komandiri polis baş leytenantı Cavid Çələbiyev 67 kiloqram çəki dərəcəsində, DİN İdman Cəmiyyətinin yetirməsi Ümid Rüstəmov isə 57 kiloqram çəki dərəcəsində gümüş medal qazanıblar. Baş Mühafizə İdarəsinin Suraxanı Rayon Mühafizə Şöbəsinin əməkdaşı polis serjantı Vətən Hüseynli 86 kiloqram çəki dərəcəsində bürüc medal əldə edib.

Daha bir əməkdaşımız Əməkdar idman ustası, Səbail Rayon Polis İdarəsinin Kadrlar qrupunun fiziki və döyüş hazırlığı üzrə kiçik inspektor-təlimatçısı polis serjantı Kamran Şahsuvarlı isə 75 kiloqram çəki dərəcəsində fərxi kürsünün ən yüksək pilləsində qərarlaşıb.

Qeyd edək ki, həmkarımız K.Şahsuvarlı 2016-cı ildə Rio-de-Janeyroda baş tutan Yay Olimpiya Oyunlarının bürünc medalının sahibidir. O, həm də Azərbaycan idmanında xidmətlərinə görə Prezident İlham Əliyev tərəfindən "Tərəqqi" medalı ilə təltif edilib.

Ruslan Vəliyev
polis baş leytenantı

Polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları - Arxiv materialları

Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları

Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri metodiki mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Odur ki, əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarının dərcini davam etdiririk.

(Əvvəli ötən sayımızda)

Sonralar aramızda yaranmış bəzi anlaşılmazlıqlara görə o, iki yoldaşı – prokuror ləqəbli Dekostar və Kretyenlə birlikdə mənim briqadamdan ayrıldı. Bəlkə də inanmazsınız, hazırda Koko-Lakur təhlükəsizlik polisinin rəisidir. Xidmət etdiyim uzun illərdən sonra tutduğum vəzifəyə çatana qədər hansı çətinliklərdən keçdiyimi bilmək üçün Kokonun qeydlərinə baxmaq kifayət edər. Onun keçmişini kökündən dəyişməsi sübut edir ki, həyatda ən yaramaz və yolunu azmış belə tövbə edib nümunəvi insan ola bilər. Mən varisimin vaxtilə hansı işlərlə məşğul olması barədə sizlərlə məlumat vermək istərdim. Onun əməlləri haqqında polisin arxivindəki qeydlərdən oxuyuram:

"Lakur, Mari-Bartele – on bir yaşı var, Liçeya küçəsində yaşayır, doqquz yaşı olanda oğurluğa cəhd etdiyi üçün adı həbsxananın qeydiyyat kitabına düşüb, bir aydan sonra azadlığa buraxılıb.

Elə həmin ilin ikinci yarısında mağazadan bəzək əşyası oğurlamaqda ittiham edilərək yenidən Forsa salınsa da, günün 2-ci yarısı dairənin polis rəisinin əmriylə



azadlığa buraxılıb.

Yenidən həbs edilərək Bisterə göndərilib, lakin bir müddət sonra Floreal jandarma şöbəsinə köçürülüb.Artıq 17 yaşlı bu məşhur oğru dəfələrlə cinayət başında yaxalanaraq həbs edilib. 1807-ci ilin iyulunda könüllü kimi müstəmləkə qoşunlarının sırasına qoşulub, lakin elə həmin ayın 31-də təyinat yerinə köçürülərkən Reo adasından qaçıb.

Yenidən oğurluq ittihamı ilə 1 yanvar 1809-cu ildə həbs edilib. İslah Məhkəməsinin qərarına əsasən 18 yanvar 1810-cu ildə azadlıqdan məhrum edilərək Hərbi Dəniz Nazirliyinin həbsxanasına göndərilib.

İslah olunmayan bu oğru 22 yanvar 1812-ci ildə yenidən Bisterə düşüb."

Keçmişə baxış

Lakurun uşaqlıq və yeniyetməlik illəri xoş xatirələrlə yadda qalmayıb. Kasıb bir ailədə dünyaya gələn sələfimin atası dərzilik etməklə yanaşı, Lisey küçəsini süpürməklə ailəsini dolandırırdı. Heç şübhəsiz ki, vaxtında övladın tərbiyəsilə ciddi məşğul olmaq onun gələcək həyatının formalaşmasında mühüm rol oynayır.

Valideynlərini erkən yaşlarında itirən Kokonu, belə demək mümkünsə, qonşuları və yüngül həyat tərzi keçirən qadınlar böyüdür. Onlar bu yaraşıqlı yeniyetməni ac qalmağa qoymur, məhəbbət və nəvaziş göstərir, eyni zamanda, ona fırıldaqçılığın yollarını öyrədirdilər. Lakura nəvaziş göstərən bu qadınlar onu hər zaman yanlarında saxlayırdılar. Koko onların oyuncağı, əyləncəsi idi, buna həvəsləri olmayanda, yaxud, digər işlərlə məşğul olanda tamamilə nəzarətsiz qalan uşaq, məhəllənin balaca oğruları və dələduzları ilə bir yerdə oynayır, get-gedə təpədən dırnağadək korlanırdı. Başıpozuq qadınların himayəsində, fırıldaqçıların əhatəsində böyüyən uşağın hansı yolun yolçusu olacağını bilmək elə də çətin deyildi. Ona himayədarlıq edən qadınla İtaliyaya köçüb bir müddət orada yaşadıqdan sonra Parisə geri dönmüşdü.

Təhlükəli və islaholunmaz Koko yenidən həbs olunaraq dörd-beş il ərzində Bisterdə cəza çəkmişdi. Elə həmin illərdə ilk təhsilini almaqla yanaşı, papaq tikmək sənətinə də yiyələnmişdi. Tezliklə savadlı bir məhbus davranışı və çalışqanlığı ilə digərlərindən fərqlənən Lakuru özünə şagird götürmüşdü.

O, dəbdəbəni sevir, gözəl geyinir, qiymətli əşyalar - boyunbağı və müxtəlif növ üzüklər taxırdı. Çıxışlarında yeri gəldi-gəlmədi pafoslu ifadələrdən istifadə etməyi xoşlayırdı.

Kokonun yaraşıqlı olması hər zaman onun köməyinə çatırdı. Həbsdə olduğu müddətdə "Alman-Elisa" ləqəbli bir qız daima ona yardım edir, qayğısına qalırdı. Qarşılığında nankorluqdan başqa bir şey qazanmayan bu qız, sözün əsl mənasında, onun həyatını xilas etdi.

Mənim yanımdan istefa verdikdən sonra küçədə şərf satmaqla məşğul idi. Bir müddət sonra sayılıb-seçilən xanımla evləndi. Bu qadın ona islah olmaqda çox yardım etdi. Lakur yaxınlıqda digər kilsənin olmasına baxmayaraq hər bazar günü ibadət üçün ancaq Notor-Dam kilsəsinə gedirdi. Hər dəfə də "təsadüfən" rəhbərliyin ailəsinin gözü önündə dayanmalı olurdu. Əlbəttə Lakurun bu dindarlığı alqışalayiq idi, lakin iyirmi il bundan öncə olanları yada salsaq məhz onların gözü önündə nə üçün dayanmasını anlamaq olardı.

(Ardı var)

Müdriklərin söz xəzinəsi

Yolu ilə gedən yorulmaz.

Atalar sözü

Həyat avtomobil idarə etmək kimi bir şeydir – nə qədər diqqətli və təcrübəli olsan da, qəzaya uğramaq ehtimalı həmişə var.

A.L.Stal

Daş-qaş əvəzinə özünə bilik yığsan daha çox tanınarsan: ən qiymətli daşı salıb itirə bilərsən, ən sadə biliyi isə səndən heç kəs ala bilməz.

Əbül Fərəc

Başqalarını bilən adam bilikli, özünü bilən adam isə ağıllıdır.

Lao Tszı

Əgər bir yerdə kiçik insanların kölgəsi böyüyürsə, demək o yerdə Günəş batır.

Konfutsi

Çox işdə şagird olmaqdansa, bir işdə usta ol.

İmam Qəzali

Gil qabın möhkəmliyini səsi ilə yoxlayan kimi, insanı da ağzından çıxan söz ilə yoxlayırlar.

Əbül Fərəc

Ağıllı, səxavətli adamlar mallarını dostlarla yeyərlər, ağılsız xəsislər isə yeməyib, düşmənlərə saxlayarlar.

Ə.Cami

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10390

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik